Azərbaycan Respublikasının Mərkəzi Bankı

# 2022-Cİ İL ƏRZİNDƏ ƏSAS MƏQSƏD VƏ FUNKSİYALARIN HƏYATA KEÇİRİLMƏSİ BARƏDƏ

# H E S A B A T

## Mündəricat


Giriş ........................................................................................................ 3

1. Məqsədlərin həyata keçirilməsi ........................................................ 3

*1.1 Mərkəzi Bankın qanunla müəyyən edilmiş səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsi ........................................................................ 3*

*1.2 Banklararası mərkəzləşdirilmiş və digər lisenziyalaşdırılmayan ödəniş sistemlərinin təşkili və fəaliyyətinin təmin edilməsi ........................................................ 4*

2. Funksiyaların həyata keçirilməsi ...................................................... 6

*2.1 Dövlətin pul və valyuta siyasətinin müəyyən edilməsi və həyata keçirilməsi ................. 6*

*2.2 Nağd pul dövriyyəsinin təşkil edilməsi, pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması ........................................................................ 7*

*2.3 Manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsinin mütəmadi müəyyən edilməsi və elan edilməsi ........................................................................ 8*

*2.4 Valyuta tənziminin və nəzarətinin həyata keçirilməsi ........................................ 9*

*2.5 Mərkəzi Bankın sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanması və idarə edilməsi ........................................................................ 9*

*2.6 Hesabat tədiyə balansının tərtib edilməsi və ölkənin proqnoz tədiyə balansının hazırlanmasında iştirak ........................................................................ 10*

*2.7 Ölkənin icmal xarici borc statistikasının və beynəlxalq investisiyalar balansının tərtib edilməsi, məlumatların ümumiləşdirilməsi və yayılması ........................................ 10*

*2.8 Bank sektorunun sağlamlaşdırılması və dayanıqlığının təmin edilməsi ...................... 11*

*2.9 Sığorta sektorunun inkişafı və dayanıqlığının təmin olunması ................................ 12*

*2.10 Kapital bazarının inkişafı və dayanıqlığının təmin olunması ................................ 13*

*2.11 Maliyyə bazarlarında istehlakçıların və investorların hüquqlarının qorunması və maliyyə maarifləndirmə işlərinin aparılması ........................................................ 15*

## Giriş

Azərbaycan Respublikası Mərkəzi Bankı 2022-ci ildə öz mandatına uyğun funksiyalarının həyata keçirilməsini təmin etmiş, ölkədə makroiqtisadi və maliyyə sabitliyinin qorunmasına yönəldilmiş siyasət həyata keçirmişdir.

2022-ci ildə Mərkəzi Bankın fəaliyyət mühiti qlobal iqtisadi proseslərin ölkə iqtisadiyyatına çoxtərəfli təsirləri ilə xarakterizə olunur. Geosiyasi gərginlik şəraitində dünya əmtəə birjalarında bahalaşma və ticarət tərəfdaşı olan ölkələrdə inflyasiyanın yüksəlməsi ölkə daxilində inflyasiyaya təsir etmişdir. Profisitli tədiyə balansı valyuta bazarında təklifin genişlənməsi və ölkənin strateji valyuta ehtiyatlarının artımı ilə müşayiət olunmuşdur.

İl ərzində pul siyasəti monetar amillər vasitəsilə inflyasiya təzyiqinin yumşaldılmasına yönəldilmiş, monetar şəraitin sərtləşdirilməsi ilə məcmu tələbin izafi artımı məhdudlaşdırılmışdır.

2022-ci ildə pul siyasətinin əməliyyat çərçivəsinin təkmilləşdirilməsi, xüsusilə də faiz dəhlizinin parametrlərinin ötürücülüyünün gücləndirilməsi istiqamətində Mərkəzi Bank tərəfindən bir sıra tədbirlər görülmüşdür. 2022-ci ilin sentyabrından pul siyasətinin yeni alətlərinin tətbiqinə başlanılmışdır. Hesabat ilində banklararası faizlərin Mərkəzi Bankın faiz dəhlizinin parametrlərinə reaksiyası güclənmişdir.

2022-ci ildə Mərkəzi Bankın maliyyə sabitliyi siyasətinin əsas prioritetlərini maliyyə-bank sisteminə etimadın qorunması, risklərin minimallaşdırılması, maliyyə sektorunda idarəetmə potensialının və şoklara qarşı dayanıqlığın artırılması təşkil etmişdir. 2022-ci ildə real sektorun maliyyə resurslarına çıxışının genişlənməsi davam etmişdir. Biznesin kreditləşməsi və qiymətli kağızlar bazarında müşahidə olunan dinamika iqtisadi artımın maliyyələşmə imkanlarını genişləndirmiş, maliyyə sektorunun dərinliyi daha da yüksəlmişdir. Nağdsız ödənişlərin genişlənməsi maliyyə sektorunun resurs bazasını artırmışdır.

## 1. Məqsədlərin həyata keçirilməsi

*Mərkəzi Bankın fəaliyyətinin məqsədi qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsi, banklararası mərkəzləşdirilmiş və digər lisenziyalaşdırılmayan ödəniş sistemlərinin təşkili və fəaliyyətinin təmin edilməsi, habelə bank sisteminin sabitliyinə dəstəyin göstərilməsindən ibarətdir.*

### 1.1 Mərkəzi Bankın qanunla müəyyən edilmiş səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsi

*2022-ci ildə qlobal miqyasda inflyasiya təzyiqlərinin davam etməsi ölkədaxili inflyasiya proseslərinə və gözləntilərə təsir göstərmişdir. Monetar şərait və həyata keçirilən antiinflyasiya tədbirləri inflyasiya idxalını məhdudlaşdırmışdır.*

Rəsmi statistikaya görə illik inflyasiya (2022-ci ilin dekabr ayı 2021-ci dekabr ayına nəzərən) 14.4% təşkil etmişdir. Orta illik inflyasiya isə 13.9% olmuşdur. Tənzimlənən qiymətlərin, həmçinin mövsümi xarakterli məhsulların qiymət dəyişimi nəzərə alınmadan hesablanan baza inflyasiya dekabr ayında illik 14% təşkil etmişdir.

Hesabat ilində ümumi inflyasiya səviyyəsinin yüksəlməsinə ərzaq məhsullarının bahalaşması daha çox təsir göstərmişdir. İllik ərzaq inflyasiyası 19%, orta illik ərzaq inflyasiyası isə 19.5% təşkil etmişdir. Qeyri-ərzaq məhsulları üzrə qiymətlər illik 11.9%, orta

illik 8.6% artmışdır. Xidmətlər son 1 ildə 10.2% bahalaşmışdır. Bu dövrdə orta illik xidmət inflyasiyası 10.4% təşkil etmişdir. Ümumilikdə, illik inflyasiyaya 8.2 faiz bəndi ərzaq, 2.8 faiz bəndi qeyri-ərzaq, 3.4 faiz bəndi isə xidmətlərin qiymət və tariflərinin dəyişimi töhfə vermişdir.

Faktiki inflyasiyanın dinamikası inflyasiya gözləntilərinə də təsir etmişdir. Dekabrda aparılan sorğulara görə ev təsərrüfatlarının 82%-i inflyasiya gözləyir, o cümlədən 22%-i inflyasiya tempinin daha da yüksələcəyini düşünür.

Təhlil göstərir ki, qiymət artımının birbaşa və dolayı olaraq yarısından çoxu xarici mənşəli amillərlə bağlıdır. İdxal üzrə illik qiymət indeksinin artımı noyabr ayında 23.4% olmuşdur. İdxal qiymətlərinin yüksək səviyyədə qalması geosiyasi gərginlik fonunda dünya əmtəə qiymətlərinin bahalaşması, daşınma-logistika xərclərinin yüksəlməsi, tərəfdaşlarda inflyasiya templərinin sürətlə artması ilə izah edilir. Profisitli tədiyə balansı, valyuta bazarında tarazlıq və nominal effektiv məzənnənin bahalaşması, qəbul edilən pul siyasəti qərarlarının təsiri altında formalaşan monetar şərait yüksək inflyasiyanın bir hissəsini neytrallaşdırmışdır.

Əlverişsiz xarici inflyasiya fonu istehsalçı qiymətlərinə də təsir göstərmişdir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2022-ci ildə kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətlərində illik 10.2%-lik artım müşahidə olunmuşdur. Sənaye məhsullarının istehsalçı qiymətləri indeksi illik 15.5% artmışdır. İstehsalçı qiymətləri indeksinin artım tempi neft-qaz sənayesi məhsulları üzrə 15.7%, qeyri neft-qaz məhsulları üzrə isə 10.6% təşkil etmişdir. Emal sənayesi üzrə istehsalçı qiymətləri indeksi illik 15.4% artmışdır.

2022-ci ildə nəqliyyat və anbar xidmətləri üzrə qiymətlər illik 6.8% artmışdır. Nəqliyyatda yükdaşıma qiyməti 4.7%, sərnişindaşıma qiyməti isə 30.7% artmışdır. Sərnişindaşıma qiymətlərində yüksək artım tempi hava nəqliyyatı xidmətlərinin 42.9% bahalaşması ilə izah edilir. Poçt və kuryer xidmətlərinin qiyməti illik 50.3% artmışdır. Bununla yanaşı, informasiya və kommunikasiya texnologiyaları üzrə xidmətlərin qiyməti illik 0.8% azalmış, reklam xidmətlərinin qiyməti isə illik 3.1% yüksəlmişdir.

## 1.2 Banklararası mərkəzləşdirilmiş və digər lisenziyalaşdırılmayan ödəniş sistemlərinin təşkili və fəaliyyətinin təmin edilməsi

*Ödəniş sistemlərinin sabit və etibarlı fəaliyyətinin təmin edilməsi Mərkəzi Bankın fəaliyyətinin prioritet istiqamətlərindən biri olmuşdur. Qlobal rəqəmsallaşma şəraitində sistemlərin kiber hücumlara qarşı davamlılığının artırılması diqqət mərkəzində saxlanmışdır.*

Hesabat ilində Milli ödəniş sisteminin əsas komponentləri olan Real vaxt rejimində banklararası hesablaşmalar sistemi (AZIPS) və Xırda ödənişlər üzrə hesablaşma klirinq sistemi (XÖHKS) vasitəsilə həyata keçirilən ödənişlərin ümumi həcmi 2021-ci illə müqayisədə 57% artaraq 342 mlrd. manat (ÜDM-in 2.6 misli), ödənişlərin sayı isə 38% artaraq 97.3 mln. ədəd olmuşdur.

Hökumət ödəniş portalına (HÖP) inteqrasiya olunmuş qurumlar üzrə 1100-dən çox xidmət üzrə ödənişlərin toplanması təmin olunmuşdur. HÖP üzərindən hesabat dövründə həyata keçirilən əməliyyatların ümumi həcmi 5 mlrd. manat təşkil etmiş və bu əməliyyatların 66%-i nağdsız formada aparılmışdır. Əməliyyatların ümumi həcmi 2021-ci il ilə müqayisədə 23%, o cümlədən nağdsız əməliyyatların həcmi 40% artmışdır.

Hesabat dövründə Banklararası Kart Mərkəzi üzərindən milli valyutada emal olunan əməliyyatların həcmi 10.1 mlrd. manat, xarici valyutada isə 39.1 mln. dollar və 14.8 mln. avro təşkil etmişdir.

Nağdsız ödənişlərin inkişafı məqsədilə hazırlanmış "Azərbaycan Respublikası Mərkəzi Bankının 2021-2023-cü illər üçün rəqəmsal ödəniş Strategiyası"nın Tədbirlər Planı üzrə müvafiq işlər görülmüşdür.

01.01.2023-cü il tarixinə dövriyyədə olan ödəniş kartlarının sayı 13.6 mln. ədəd, bankomatların sayı 3 min ədəd, POS-terminalların sayı isə 79.8 min ədəd təşkil etmişdir. Hesabat dövründə ödəniş kartları ilə ölkə daxilində aparılmış nağdsız əməliyyatların həcmi 2.1 dəfə artaraq 24.4 mlrd. manat təşkil etmişdir. Ölkədə elektron ticarət vasitəsilə aparılan əməliyyatların sayı 2021-ci il ilə müqayisədə 2.4 dəfə, həcmi isə 2.5 dəfə artmışdır. Ölkə daxilində ödəniş kartları ilə aparılan nağdsız ödənişlərin xüsusi çəkisi ötən illə müqayisədə 11.4 faiz bəndi artaraq 43.2%-ə bərabər olmuşdur. Hesabat dövründə internet bankçılıq xidmətləri vasitəsilə həyata keçirilən əməliyyatların həcmi 2021-ci illə müqayisədə 50%, mobil bankçılıq əməliyyatlarının həcmi isə 3 dəfə artmışdır.

Hesabat ili ərzində 24/7 rejimində fəaliyyət göstərən Ani ödənişlər sisteminin (AÖS) əhatə dairəsi və funksionallıqları genişləndirilmişdir. AÖS-ə hesabat dövrünün sonuna 24 bank, "Azərpoçt" MMC və Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi inteqrasiya olunmuşdur. AÖS-dən istifadənin stimullaşdırılması məqsədilə 2022-ci il ərzində fiziki şəxslər *(sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər istisna olmaqla)* tərəfindən aparılan QR-kod ödənişləri və köçürmələr üzrə sistemdən istifadəyə görə iştirakçı təşkilatlardan xidmət haqqı tutulmamışdır. 2022-ci il ərzində AÖS vasitəsilə həyata keçirilən əməliyyatların sayı 2021-ci illə müqayisədə 2.9 dəfə artaraq 337.6 min ədəd, həcmi isə 2 dəfə artaraq 549.3 mln. manat olmuşdur.

Ödəniş xidmətləri üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə hazırlanmış "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Qanun layihəsi bazar iştirakçılarının rəy və təklifləri əsasında təkmilləşdirilərək aidiyyəti üzrə təqdim edilmişdir. Məsafədən bank hesablarının açılmasının bazar tələblərinə və müasir beynəlxalq təcrübəyə uyğunlaşdırılması üzrə "Bank hesablarının açılması, aparılması və bağlanması" Qaydaları üzrə dəyişiklik layihəsi hazırlanaraq təsdiq edilmişdir. Təsərrüfat subyektlərində innovativ ödəniş xidmətlərinin tətbiqi imkanlarının yaradılması üçün "Azərbaycan Respublikasının ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları" üzrə hazırlanmış dəyişiklik layihəsi təsdiq edilmiş və nağdsız ödənişlərin qəbulunda "mPOS" həllinin tətbiqi imkanı yaradılmışdır.

Beynəlxalq kart təşkilatları ilə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi və innovativ ödəniş həllərinin ölkəyə gətirilməsi istiqamətində fəaliyyət 2022-ci il ərzində də diqqət mərkəzində saxlanılmışdır. Hesabat ilində Mərkəzi Bankın təşəbbüsü, bank sektoru və beynəlxalq kart təşkilatlarının dəstəyi ilə ölkədə təmassız ödəniş həllərinin çeşidinin artırılması və innovativ texnologiyaların tətbiqi məqsədilə "Google Pay" ödəniş həlli Azərbaycanda uğurla aktivləşdirilmişdir. Sözügedən innovativ həll vasitəsilə istifadəçilər tərəfindən 2022-ci ildə 85.7 mln. manat ekvivalenti həcmində 4 milyon ödəniş həyata keçirilmişdir.

Hesabat dövründə rəqəmsal ödənişlərdən istifadənin təşviqi, nağdsız ödənişlər üzrə maarifləndirmə, təbliğat və təşviqat məsələləri də diqqət mərkəzində saxlanılmış, beynəlxalq kart təşkilatları və aidiyyəti qurumlar ilə birlikdə çoxsaylı stimullaşdırıcı və maarifləndirici tədbirlər həyata keçirilmişdir.

## 2. Funksiyaların həyata keçirilməsi

*Başlıca məqsədlərə nail olmaq üçün Mərkəzi Bank qanunvericiliyə müvafiq olaraq dövlətin pul və valyuta siyasətini müəyyən etmək və həyata keçirmək, nağd pul dövriyyəsini təşkil etmək, manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsini mütəmadi müəyyən və elan etmək, valyuta tənzimini və nəzarətini həyata keçirmək, hesabat tədiyə balansını tərtib etmək və ölkənin proqnoz tədiyə balansının hazırlanmasında iştirak etmək, sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarını saxlamaq və idarə etmək, ölkənin icmal (dövlət və qeyri-dövlət) xarici borc statistikasını və beynəlxalq investisiya balansını tərtib etmək və digər funksiyaların həyata keçirilməsini təmin etmək istiqamətində zəruri işlər görmüşdür.*

### 2.1 Dövlətin pul və valyuta siyasətinin müəyyən edilməsi və həyata keçirilməsi

*2022-ci ildə pul siyasəti monetar şərait vasitəsilə inflyasiya təzyiqinin yumşaldılmasına yönəldilmişdir. Pul siyasətinin yeni əməliyyat çərçivəsinin tətbiqinə başlanması ilk dəfə faiz dəhlizinin banklararası bazara təsir göstərməsinə imkan vermişdir.*

2022-ci ildə Mərkəzi Bankın pul siyasətinə dair qərarları qlobal iqtisadiyyatda proseslər, xarici və daxili risklərin reallaşma səviyyəsi, yenilənmiş proqnozlar nəzərə alınmaqla qəbul edilmişdir. 2022-ci ildə faiz dəhlizi parametrləri 9 dəfə müzakirə edilmişdir. Uçot dərəcəsinin 7.25%-dən 8.25%-ə, dəhlizin yuxarı həddinin 8.25%-dən 9.25%-ə qaldırılması ilə bağlı qərarlar qəbul edilmişdir. Pul siyasəti alətlərinin yeni konfiqurasiyada tətbiqi ilə bağlı faiz dəhlizinin aşağı həddi 1 sentyabr 2022-ci ildən 6.25%-dən 4%-ə endirilmişdir. Dəhlizin aşağı həddi ilə bağlı qərar bank sektorundakı izafi likvidliyin əlverişli şərtlərlə sterilizasiyası və banklararası pul bazarında tarazlığı təmin edən faizlərin formalaşması imkanlarının yaranması baxımından məqsədəuyğun sayılmışdır. Lakin öncədən verilən açıqlamaya uyğun olaraq növbəti aylarda faiz dəhlizinin eninə baxılmış, dəhlizin aşağı həddi oktyabr ayının sonunda 5%-ə, dekabr ayında isə 6.25%-ə qaldırılmışdır.

Hesabat dövründə pul siyasətinin əməliyyat çərçivəsinin təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər görülmüşdür. Pul siyasətinin yeni alətlərinin tətbiqinə başlanılmışdır. Bu istiqamətdə daimi imkan alətləri işə salınmış və açıq bazar əməliyyatlarının çeşidi artırılmışdır. Daimi imkan aləti olaraq sterilizasiya məqsədilə 1 günlük depozit əməliyyatlarının, likvidliyin verilməsi məqsədilə isə 1 günlük əks-repo əməliyyatlarının tətbiqinə başlanılmışdır. Açıq bazar əməliyyatlarının təkmilləşdirilməsi istiqamətində sterilizasiya məqsədilə zəruri hallarda 1, 3, 6 və 9 aylıq notlarla yanaşı 7 günlük repo hərraclarının keçirilməsi məqsədəuyğun sayılmışdır. Likvidliyin verilməsi yönümlü açıq bazar əməliyyatları olaraq 7 günlük əks-repo hərracları nəzərdə tutulur.

Mərkəzi Bankın təklif etdiyi yeni alətlər içərisində sterilizasiya yönümlü alətlərə tələbat daha yüksək olmuşdur. Sentyabr-dekabr aylarında 1 günlük depozit əməliyyatlarının orta günlük həcmi 464.3 mln. manat olmuşdur. Mərkəzi Bank 2022-ci ildə likvidliyin effektiv idarə olunması məqsədilə ümumilikdə 90 müxtəlif müddətli not hərracı keçirmişdir. Bundan 48 hərrac sentyabr-dekabr aylarına təsadüf etmişdir. Ümumilikdə, dekabrın sonuna notlar vasitəsilə sterilizasiya olunmuş vəsaitin toplam qalığı 1339 mln. manat təşkil etmişdir.

Yeni əməliyyat çərçivəsi gəlirlik əyrisinin formalaşmasına müsbət təsir etmişdir. Dekabrda orta hesabla gəlirlik 28 günlük notlar üzrə 4.69%, 84 günlük notlar üzrə 5.31%, 168 günlük notlar üzrə 6.06%, 252 günlük notlar üzrə 6.64% olmuşdur.

Mərkəzi Bankın İdarə Heyətinin qərarı ilə məcburi ehtiyat norması milli valyutada, həmçinin qiymətli metallarda cəlb edilmiş depozitlər üzrə 4%, xarici valyutada cəlb edilmiş depozitlər üzrə isə 5% müəyyən olunmuşdur. 2022-ci ilin sentyabrından başlayaraq bütün banklar məcburi ehtiyatları yeni normalara uyğun saxlamağa başlamışlar.

Banklararası pul bazarının aktivləşdirilməsi istiqamətində alternativ əməliyyat platforması təklif olunmuşdur. Manatla banklararası təminatsız kredit əməliyyatlarının Blumberq ticarət sistemi vasitəsilə bağlanmasına dair yeni kollektiv saziş qüvvəyə minmişdir. Görülmüş işlər nəticəsində Blumberq ticarət platformasında banklar arasında sentyabrda 69 ədəd əqd, oktyabrda 146 əqd bağlandığı halda noyabrda bu rəqəm 168-ə, dekabrda isə 214-ə yüksəlmişdir. Dekabrda bağlanmış əqdlərin 95.3%-i 1-3 günlük olmuşdur. Ümumilikdə, sentyabr-dekabr aylarında banklararası əməliyyatların həcmi Blumberq ticarət platforması üzrə 5717 mln. manat, REPO üzrə 420 mln. manat olmuşdur.

Həyata keçirilən tədbirlərin nəticəsi olaraq ilk dəfə faiz dəhlizinin parametrlərinin banklararası bazarda faizlərə təsiri müşahidə olunmuşdur. Banklararası təminatsız pul bazarında 1 günlük əməliyyatların orta faizi noyabrla müqayisədə dekabrda 0.3 faiz bəndi yüksək olmuşdur. Ümumilikdə, yeni əməliyyat çərçivəsinin tətbiqi pul siyasətinin alternativ lövbərinin formalaşmasına, pul siyasətinin transmissiyasında faiz kanalının güclənməsinə xidmət edir. Yeni alətlərin tətbiqi ilə sterilizasiya əməliyyatlarının aktivləşdirilməsi kredit qoyuluşlarının balanslı artımının təmin edilməsi və ortamüddətli perspektivdə valyuta bazarında tarazlığın dəstəklənməsi baxımından da vacibdir. Eyni zamanda, yeni alətlərin tətbiqi və banklararası pul bazarında əməliyyatların aktivləşməsi imkan verir ki, banklar zərurət yarandığı təqdirdə qısamüddətli dövrə vəsait cəlb etsinlər. Bu da hesablaşmaların fasiləsizliyini və dayanıqlığını dəstəkləyəcəkdir.

Pul siyasətinin kommunikasiyası hesabat dövründə diqqətdə saxlanmışdır. Mərkəzi Bankın siyasət qərarlarına dair press-relizləri müvafiq analitik şərhlərlə dərc edilmiş, müntəzəm mətbuat konfransları keçirilmiş, pul siyasəti icmalı rüblük əsasda ictimaiyyətə açıqlanmışdır. Mərkəzi Bankın fəaliyyəti rəsmi internet səhifəsi və sosial şəbəkələr vasitəsilə mütəmadi işıqlandırılmışdır. Müstəqil iqtisadçı ekspertlərlə görüş keçirilmişdir.

## 2.2 Nağd pul dövriyyəsinin təşkil edilməsi, pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması

*2022-ci il ərzində iqtisadiyyatın nağd pula tələbatı tam həcmdə, adekvat strukturda və vaxtında ödənilmiş, pul nişanları üzrə zəruri ehtiyatlar yaradılmışdır.*

Hesabat dövründə Mərkəzi Banka dövriyyədən 8.1 mlrd. manat pul nişanı mədaxil edilmiş, 10.5 mlrd. manat pul nişanı isə məxaric olunmuşdur. Tədavüldə nağd pul kütləsi 19.6% (2.4 mlrd. manat) artaraq dövrün sonuna 14.7 mlrd. manat təşkil etmişdir. Hazırda milli valyuta üzrə ehtiyatlar 15.7 mlrd. manat təşkil edir ki, bu da iqtisadiyyatın 2025-ci ilin sonunadək tələbatının bəzi nominallar istisna olmaqla ümumilikdə ödənilməsi üçün yetərlidir.

Mərkəzi Bank tərəfindən milli pul nişanlarının mövcud konsepsiya çərçivəsində yenilənməsi davam etdirilmiş və hesabat dövrü ərzində "Qarabağ" mövzusuna həsr olunan yenilənmiş 20 manatlıq pul nişanı, "Tarix" mövzusuna həsr olunan yenilənmiş 10 manatlıq pul nişanı, eləcə də yenilənmiş 10 və 50 qəpiklik metal pul nişanları tədavülə buraxılmışdır. Yenilənmiş 50 manatlıq pul nişanı ABŞ-ın Beynəlxalq Pul Nişanları Assosiasiyası tərəfindən

təşkil edilmiş müsabiqədə mövzu, dizayn və təhlükəsizlik sistemlərinə görə "Dünyanın ən yaxşı yeni banknotu" tituluna layiq görülmüşdür.

Hesabat dövrü ərzində Beynəlxalq Futbol Federasiyaları Assosiasiyasının (FİFA) rəsmi tərəfdaşı olan "MDM Münzhandelsgesellschaft MBH&CO KG Deutsche Münze" şirkəti ilə əməkdaşlıq çərçivəsində Mərkəzi Bank tərəfindən 2022-ci ildə Qətərdə keçirilmiş futbol üzrə dünya çempionatına həsr olunmuş qızıl və gümüş xatirə pul nişanları, eləcə də "Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinin 30 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 mart 2022-ci il tarixli Sərəncamından irəli gələrək Milli Olimpiya Komitəsinin sifarişi əsasında Komitənin 30 illik yubiley tarixinin əbədiləşdirilməsi məqsədilə gümüş yubiley pul nişanı tədavülə buraxılmışdır.

Tədavüldən çıxarılmış yararsız pul nişanlarının məhv edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə yaradılmış Dövlət Komissiyasının işçi qrupunun fəaliyyəti təmin edilmiş, il ərzində 2.9 mlrd. manat (132.7 mln. ədəd) kağız və metal pul nişanları məhv edilmişdir. Tədavülə buraxıldığı dövrdən 16.7 mlrd. manat (1.3 mlrd. ədəd) məbləğində yararsız pul nişanları məhv edilmiş və bu proseslər zamanı hər hansı kənarlaşma aşkar edilməmişdir.

Pul nişanlarının saxtalaşdırılmasına qarşı mübarizənin təşkili və hüquq mühafizə orqanları ilə koordinasiya diqqət mərkəzində saxlanılmış, cari il ərzində milli valyutada 452 ədəd (36 min manat) saxta pul nişanı, xarici valyutada isə 193 ədəd saxtakarlıq əlamətləri müəyyən edilmiş pul nişanı aşkarlanaraq tədavüldən çıxarılmış və müvafiq tədbirlərin görülməsi üçün hüquq mühafizə orqanlarına təqdim edilmişdir.

Əhalidə olan yararsız pul nişanlarının ekspertizaya qəbul edilməsi və dəyişdirilməsi məqsədilə Mərkəzi Bank tərəfindən Bakı şəhərində və ərazi idarələrində yaradılmış nağd pul ofisləri fəaliyyətini davam etdirmişdir. İl ərzində əhalidən 7.6 mln. manat (165 min ədəd) pul nişanı qəbul edilərək dəyişdirilmiş, "səyyar kassa" xidməti vasitəsilə 1.6 mln. manat (7.9 mln. ədəd) metal pul nişanının iri ticarət müəssisələrinə çatdırılması təmin edilmişdir.

## 2.3 Manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsinin mütəmadi müəyyən edilməsi və elan edilməsi

*Hesabat dövründə tədiyə balansının irihəcmli profisiti valyuta bazarında tarazlığa müsbət təsir etmiş, qiymət sabitliyinin başlıca lövbərini – məzənnə sabitliyini dəstəkləmişdir.*

2022-ci ildə Mərkəzi Bankda ARDNF-in valyuta satışlarının həyata keçirilməsi üzrə 99 valyuta hərracı baş tutmuşdur. Hesabat dövründə valyuta hərraclarının 80%-də təklif tələbi üstələmiş və 70 mln.$-lıq təklifə qarşı orta tələb 52.4 mln.$ təşkil etmişdir. Mərkəzi Bankın valyuta bazarına müdaxiləsi alışyönlü olmuş və 2048 mln. ABŞ dolları təşkil etmişdir.

2022-ci ildə manatın ABŞ dollarına nəzərən rəsmi məzənnəsi banklararası əqdlər üzrə orta məzənnə (Blumberq platformasında hərraclar və hərracdankənar əməliyyatlar nəzərə alınmaqla) əsasında müəyyən edilmiş və orta günlük 1.7 manat təşkil etmişdir. Kommersiya banklarının orta hesabla günlük alış məzənnəsi 1 ABŞ dollarına nəzərən 1.6971 manat, satış məzənnəsi isə 1.7024 manat təşkil etmişdir.

Hesabat ilində manatın məzənnəsi avroya, türk lirəsinə, funt-sterlinqə, qazax tengesinə, yapon yeninə, İsveçrə frankına, Ukrayna qrivnasına qarşı bahalaşmış, rus rubluna və gürcü larisinə qarşı ucuzlaşmışdır. İkitərəfli məzənnələrin dinamikası çoxtərəfli

məzənnəyə də təsir göstərmişdir. İl ərzində qeyri-neft sektoru üzrə nominal effektiv məzənnənin 8.4% bahalaşması idxal inflyasiyasının bir qismini neytrallaşdırmışdır.

### 2.4 Valyuta tənziminin və nəzarətinin həyata keçirilməsi

*Mərkəzi Bank valyuta tənzimi funksiyasını "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq həyata keçirir. Rezidentlərin və qeyri-rezidentlərin valyuta əməliyyatları qanun və Mərkəzi Bankın normativ xarakterli aktları ilə tənzimlənir.*

2022-ci il ərzində Mərkəzi Bank tərəfindən valyuta mübadiləsi fəaliyyəti ilə məşğul olmaq üçün müraciət etmiş 3 hüquqi şəxsə lisenziya verilmişdir. Ölkədə tətbiq olunan valyuta rejimi maliyyə sabitliyinin təmin edilməsinə yönəlmiş kompleks tədbirlər çərçivəsində valyuta bazarının sabitləşdirilməsi məqsədinə və ölkənin tədiyə balansının tarazlaşmasına xidmət etmişdir.

Qüvvədə olan valyuta rejiminə uyğun olaraq valyuta nəzarətinin effektivliyini artırmaq, valyuta vəsaitlərinin ölkədən qanunsuz çıxarılmasının qarşısını almaq məqsədilə bankların rezident və qeyri-rezidentlərin valyuta əməliyyatlarına monitorinq və nəzarətinin gücləndirilməsi, şübhəli əməliyyatlara yol verilməməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Təhlillər göstərmişdir ki, tətbiq olunan valyuta rejimi 2022-ci il ərzində ölkəyə xarici valyutanın mədaxili və ölkədən məxarici arasında nisbətin optimallaşmasında müsbət rol oynamışdır.

### 2.5 Mərkəzi Bankın sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanması və idarə edilməsi

*2022-ci ildə Mərkəzi Bankın valyuta ehtiyatları qlobal inflyasiya təzyiqlərinin, eləcə də geosiyasi gərginliyin kəskin artması kimi amillərlə səciyyələnən əlverişsiz bazar mühitində idarə edilmişdir. Qlobal inflyasiya ilə mübarizə çərçivəsində inkişaf etmiş ölkələrin mərkəzi bankları siyasət faiz dərəcələrini kəskin artırmışdır. Nəticədə, 2008-ci il qlobal maliyyə böhranından sonrakı dövr üçün səciyyəvi olan sıfıra yaxın mənfi bazar faiz dərəcələri əhəmiyyətli yüksəlməklə yanaşı, sərt monetar siyasətin davam etdirilməsindən irəli gələn iqtisadi böhran gözləntiləri də artmışdır.*

2022-ci ildə Mərkəzi Bankın valyuta ehtiyatlarının qəbul edilmiş strategiya və qaydalar çərçivəsində konservativ idarə olunması davam etdirilmişdir. Dövr ərzində valyuta ehtiyatları bilavasitə Mərkəzi Bankın pul siyasətinin dəstəklənməsinə xidmət edən əməliyyat tranşı və gəlirliliyin artırılması məqsədilə saxlanılan investisiya tranşına bölünməklə idarə edilmişdir. İlin sonuna rəsmi valyuta ehtiyatlarının 87%-ni ABŞ dolları, 4%-ni avro, 1%-ni funt-sterlinq və 8%-ni isə SDR (Beynəlxalq Valyuta Fondunun xüsusi borcalma hüquqları) təşkil etmişdir.

2022-ci ildə Mərkəzi Bankın valyuta ehtiyatları hər bir tranşın və alt portfellərin məqsədlərinə uyğun olaraq seçilmiş bençmarklar əsasında, xarici ölkələrin investisiya dərəcəli kredit reytinqinə malik dövlət və kvazi-dövlət borc öhdəliklərinə investisiya olunmaqla idarə edilmişdir. İnvestisiya portfelinin kredit keyfiyyətinin daha da yüksəldilməsi və ölkələr üzrə şaxələndirilməsi hesabat ilində davam etdirilmişdir.

2022-ci ildə Mərkəzi Bank valyuta ehtiyatlarının idarə edilməsində daxili idarəetmə ilə yanaşı xarici menecerlərlə əməkdaşlığı davam etdirmişdir. Xarici idarəetmədə olan portfellərin şaxələndirilməsi imkanlarının və səmərəliliyinin artırılması, eləcə də qabaqcıl xarici təcrübənin daxili idarəetməyə ötürülməsi istiqamətində tədbirlər görülmüşdür.

Qlobal maliyyə bazarlarında müşahidə olunan əlverişsiz mühit Mərkəzi Bankın valyuta ehtiyatlarının idarə edilməsinin nəticələrinə də təsirsiz ötüşməmişdir. Belə ki, aparıcı mərkəzi bankların siyasət faiz dərəcələrini kəskin artırması fonunda qlobal borc qiymətli kağızlarının bütün seqmentləri üzrə qiymətlər düşmüşdür. Yüksələn bazar faiz dərəcələri Mərkəzi Bankın investisiya portfelinin əhəmiyyətli hissəsini təşkil edən qısamüddətli maliyyə alətlərinin daha yuxarı faizlə yenidən investisiyasına imkan yaratmaqla faiz gəlirlərini artırsa da, nisbətən uzunmüddətli perspektiv üçün investisiya edilən risksiz və yüksək kredit keyfiyyətli borc qiymətli kağızları üzrə realizə olunmamış yenidənqiymətləndirmə zərərlərinin yaranmasına gətirib çıxarmışdır. Nəticədə, 2022-ci ilin sonuna Mərkəzi Bankın valyuta aktivlərinin idarə edilməsindən xalis gəlirlər -41.8 mln. ABŞ dolları, gəlirlilik isə -0.53% olmuşdur. Qeyd edək ki, yüksələn bazar faiz dərəcələri növbəti illərdə Mərkəzi Bankın valyuta aktivlərinin idarə edilməsindən əldə olunacaq gəlirlərin əhəmiyyətli artırılmasına imkan verəcəkdir.

2022-ci ildə Mərkəzi Bankın rəsmi valyuta ehtiyatları 1.9 mlrd. ABŞ dolları və ya 27% artaraq 9.0 mlrd. ABŞ dolları təşkil etmişdir. Daxili bazardan valyuta alışları valyuta ehtiyatlarına artırıcı, əsasən məzənnə fərqi isə azaldıcı təsir göstərmişdir.

## 2.6 Hesabat tədiyə balansının tərtib edilməsi və ölkənin proqnoz tədiyə balansının hazırlanmasında iştirak

*2022-ci ilin 9 ayı ərzində tədiyə balansının müvafiq beynəlxalq standartlar (BPM6) əsasında tərtibi davam etdirilmişdir.*

"Beynəlxalq əməliyyatlar üzrə hesabatlılıq sistemi" (İTRS) vasitəsilə aparılan çarpaz dəqiqləşmələr tədiyə balansının hesabatlıq və uçot sisteminin təkmilləşdirilməsinə imkan vermişdir. Dövr ərzində İTRS çərçivəsində statistik göstəricilərin dəqiqləşdirilməsi və emal prosesinin təkmilləşdirilməsi məqsədilə avtomatlaşma işləri yekunlaşdırılmış və hesabat portalı respondentlərə və istifadəçilərə təqdim edilmişdir.

Bir sıra dövlət müəssisələrindən (əsasən ARDNF və SOCAR) daha detallı informasiya əldə olunmuşdur ki, bu da birbaşa xarici investisiyalara dair məlumatların dəqiqləşdirilməsinə imkan vermişdir. Eyni zamanda İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti ilə məlumat mübadiləsi çərçivəsində royalti və lisenziya xidmətləri üzrə göstəricilər dəqiqləşdirilərək tədiyə balansının müvafiq maddəsində əks olunmuşdur.

Son makroiqtisadi meyilləri də nəzərə almaqla Mərkəzi Bank 2022-ci ildə tədiyə balansının proqnozlaşdırılması ilə bağlı aidiyyəti orqanlarla müntəzəm olaraq məsləhətləşmələr aparmış, bir sıra iri dövlət müəssisələrinə zəruri sorğular göndərmişdir. Ölkənin ortamüddətli sosial-iqtisadi inkişaf proqnozlarının hazırlanması məqsədilə İqtisadiyyat Nazirliyinə tədiyə balansına dair məlumatlar və yekun proqnozlara rəsmi rəy təqdim edilmişdir.

## 2.7 Ölkənin icmal xarici borc statistikasının və beynəlxalq investisiyalar balansının tərtib edilməsi, məlumatların ümumiləşdirilməsi və yayılması

*2022-ci ilin 9 ayında icmal xarici borc statistikasının və beynəlxalq investisiyalar balansının məlumatlarının yığılması və ümumiləşdirilməsi davam etdirilmişdir.*

Maliyyə Nazirliyi tərəfindən təqdim olunan xarici borc məlumatları əsasında dövlət və dövlət təminatlı xarici borc statistikası, kommersiya banklarından alınan rəqəmsal balans əsasında bank sektoru üzrə xarici borc statistikası Mərkəzi Bank tərəfindən

formalaşdırılmışdır. Dövlət və dövlət təminatlı kreditlər, hökumət və korporativ qiymətli kağızlar, debitor və kreditor borclar üzrə göstəricilərlə yanaşı banklar tərəfindən təqdim olunan məlumatlar da nəzərə alınmaqla ölkənin icmal xarici borc və beynəlxalq investisiyalar statistikası icmallaşdırılmış və müvafiq dövlət orqanlarına təqdim olunmuşdur.

İcmal xarici borc statistikasının və beynəlxalq investisiyalar balansının məlumatlarının yığılması və ümumiləşdirilməsi prosesinin təkmilləşdirilməsi məqsədilə avtomatlaşdırma işləri davam etdirilmişdir. Ölkənin icmal xarici borc və beynəlxalq investisiyalar statistikası üzrə məlumat bazasının təkmilləşdirilməsi və analitik təhlil imkanlarının genişləndirilməsi məqsədilə hazırlanmış "Xarici borc və beynəlxalq investisiyalar haqqında statistik hesabatın tərtibi və təqdim edilməsi haqqında Təlimat" AMB-nin İdarə Heyətinin 25.05.2022-ci il tarixli 18/1 nömrəli qərarı ilə təsdiq olunmuş və Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmişdir. Respondentlərə təqdim edilmiş "Xarici borc və beynəlxalq investisiyalar haqqında statistik hesabatın tərtibi və təqdim edilməsi haqqında Təlimat"-la əlaqədar video konfrans formatında görüş keçirilmişdir. Görüşdə xarici borc və beynəlxalq investisiyalar haqqında statistik hesabat üzrə metodoloji tövsiyələr verilmişdir.

### 2.8 Bank sektorunun sağlamlaşdırılması və dayanıqlığının təmin edilməsi

*Mürəkkəb geosiyasi proseslərin yaratdığı qeyri-müəyyənliklər fonunda bank sektoru sabit fəaliyyətini davam etdirmişdir. 2022-ci il ərzində bank sektorunun kapital və likvidlik göstəriciləri normativləri əhəmiyyətli üstələmiş, mənfəətlilik göstəriciləri yaxşılaşmışdır. Makroiqtisadi və maliyyə sabitliyi hədəfləri çərçivəsində kredit portfeli artaraq iqtisadi fəallığa töhfə vermişdir.*

Cari il ərzində nəzarət çərçivəsində bank sektorunun maliyyə dayanıqlığı diqqətdə saxlanmışdır. Bank sektorunda kredit riskləri, xarici valyuta bazarında trendlər və dollarlaşma prosesləri mütəmadi izlənmiş, geosiyasi proseslərin təsiri nəticəsində aktuallığını artırmış hesablaşma kanalları monitorinq edilmiş, bankların cari maliyyə vəziyyəti qiymətləndirilmişdir. Hesabat dövründə 5 bankda, 4 bank olmayan kredit təşkilatında və "Azərpoçt" MMC-də hərtərəfli yoxlama, habelə 4 bankda tematik yoxlama aparılmışdır. Nəzarət alətlərinin səmərəli tətbiqi nəticəsində bankların maliyyə dayanıqlığı qorunmuş, əhalinin bank sektoruna inamı artmışdır.

Mərkəzi Bankın İdarə Heyətinin 11.10.2022-ci il tarixli qərarı ilə könüllü ləğvetmə ilə əlaqədar öz müraciəti əsasında Pakistan Milli Bankının Bakı filialına verilmiş lisenziya ləğv edilmişdir. Bununla da Azərbaycanda 31.12.2022-ci il tarixinə 25 bank (o cümlədən, 2 dövlət bankı) fəaliyyət göstərmişdir. Bankların xidmət şəbəkəsi 487 filial, 91 şöbə (mübadilə şöbələri daxil olmaqla), 2997 ATM, habelə 22731 işçi vasitəsilə təmin edilir.

"Azərbaycan Beynəlxalq Bankı" ASC-nin 2016-cı ildən etibarən yaranmış qısa açıq valyuta mövqeyi problemi cari ilin iyul ayının əvvəllərində Mərkəzi Bankın valyuta satışı hesabına həll edilərək normativ tələbə uyğunlaşdırılmışdır. Bankın likvidlik və valyuta mövqeyi davamlı əsasda nəzarətdə saxlanılır.

Hesabat dövründə bank sektorunun səhmdar kapitalı 58.7 mln. manat məbləğində artmışdır. Bank sektorunun kapital adekvatlığı minimum requlyativ tələbi (sistem əhəmiyyətli banklar üzrə 12%, digər banklar üzrə 10%) 1.9 dəfə üstələmişdir.

2022-ci il ərzində bank sektorunun kredit aktivliyi artmışdır. Bankların kredit portfeli il ərzində 17.6% (2.9 mlrd. manat) artaraq 19.6 mlrd. manat təşkil etmişdir. Bankların istehlak

portfeli 27.3%, ipoteka portfeli 24.3%, biznes portfeli 11.4% artmışdır. 31.12.2022-ci il tarixinə biznes kreditləri cəmi kredit portfelinin 55.4%-ni təşkil etmişdir.

2022-ci il ərzində bank sektorunda risklərin davamlı qiymətləndirilməsi aparılmış və maliyyə dayanıqlığı müxtəlif ssenarilər əsasında stress-testlər vasitəsilə qiymətləndirilmişdir. Eyni zamanda, bankların stress-test modellərinin təkmilləşdirilməsi istiqamətində Mərkəzi Bank tərəfindən zəruri metodoloji dəstək göstərilmişdir.

Bank sektorunun nəzarət çərçivəsinin təkmilləşdirilməsi istiqamətində 2022-ci il ərzində Mərkəzi Bank tərəfindən kredit portfelinin keyfiyyətinə potensial təhdidləri minimallaşdırmaq, məsuliyyətli və sağlam kreditləşməni təmin etmək, o cümlədən əhalinin izafi borclanmasının qarşısını almaq, habelə real sektorda irimiqyaslı və uzunmüddətli layihələrin maliyyələşdirilməsində bankların rolunu artırmaq üçün müvafiq normativ aktlara dəyişikliklər həyata keçirilmiş və "Layihə maliyyələşdirilməsi kreditlərinin prudensial tənzimlənməsi Qaydası" adlı yeni normativ akt təsdiq edilmişdir.

Azərbaycan Kredit Bürosuna (Büro) 2022-ci il ərzində daxil olan ümumi sorğu sayı 77.9 mln. ədəd, skorinq sorğularının sayı 0.3 mln. ədəd olmuşdur. Yarandığı tarixdən 31 dekabr 2022-ci il tarixinə Büroya daxil olan ümumi sorğu sayı 118.6 mln. ədəd, skorinq sorğularının sayı 4.6 mln. ədəd təşkil etmişdir.

Bank sektorunun likvid aktivləri 17.1 mlrd. manat olmaqla bank sektorunun cəmi aktivlərinin 36.4%-ni təşkil etmişdir. Sektorun ani likvidlik əmsalı 59.7% olmaqla minimum requlyativ tələbi (30%) 2 dəfə üstələyir.

2022-ci il ərzində bank sektorunun cəmi öhdəlikləri 23.7% (7.9 mlrd. manat) artaraq 41.4 mlrd. manat təşkil etmişdir. Depozitlər cəmi öhdəliklərin 81.4%-i həcmindədir ki, bunun da 11.5 mlrd. manatı əhalinin (sahibkarlıqla məşğul olan fiziki şəxslər istisna olmaqla) əmanətləridir. 2022-ci il ərzində əhalinin əmanətləri tarixi rekord səviyyədə – 27.1% artmışdır (milli valyutada 31.3%, xarici valyutada 21.3%).

Son illər milli valyutanın məzənnəsində müşahidə olunan sabitlik əmanətlərin dedollarlaşma trendini formalaşdırmışdır. Eyni zamanda kredit portfeli üzrə dedollarlaşma hesabat ilində də davam edərək tarixi minimum səviyyəyə düşmüşdür. İlin sonuna olan məlumata görə dollarlaşma əhalinin əmanətləri üzrə 39.8%, hüquqi şəxslərin depozitləri (maliyyə sektorunun depozitləri istisna olmaqla) üzrə 50.9%, kredit portfeli üzrə 20.1% təşkil edir.

2022-ci ildə bank sektorunun müddətli xarici borcu 27.8% azalaraq 276.5 mln. ABŞ dolları olmuşdur. Hazırda xarici borc bankların cəmi öhdəliklərinin yalnız 1.1%-ni (ABB istisna olmaqla 0.9%-ni) təşkil edir.

### 2.9 Sığorta sektorunun inkişafı və dayanıqlığının təmin olunması

*2022-ci il üzrə sığorta sektorunun fəaliyyəti 19 sığortaçı, 1 təkrarsığortaçı, 1 müştərək sığortaçı, 29 sığorta brokeri və 652 sığorta agenti vasitəsilə təmin edilmişdir.*

2022-ci il üzrə sığorta haqları əvvəlki illə müqayisədə 15% artaraq 969 mln. manat, sığorta ödənişləri isə 6% azalaraq 434 mln. manat təşkil etmişdir. Həyat sığorta şirkətləri üzrə sığorta haqlarında artım 30%, qeyri-həyat sığorta şirkətləri üzrə isə 2% təşkil etmişdir. Hesabat dövründə Mərkəzi Bank tərəfindən 4 sığortaçıda, 1 sığorta agentində, 2 sığorta və təkrarsığorta brokerində növbəti hərtərəfli yoxlamalar keçirilmişdir.

Sığorta sahəsində risk əsaslı nəzarətə keçidlə bağlı hazırlanmış layihə çərçivəsində sığortaçıların öz vəsaitinin ölçülməsi, aktivlərin və öhdəliklərin qiymətləndirilməsi istiqamətində işlər aparılmışdır. “Solvency 2” prinsipləri əsasında layihənin ilkin versiyası hazırlanaraq rəy və təkliflərin alınması üçün beynəlxalq ekspertlərə təqdim edilmişdir. “Solvency 2” tələblərinə uyğun korporativ idarəetmə standartlarının hazırlanması, eləcə də sığortaçı tərəfindən ictimaiyyətə açıqlanacaq məlumatlar üzrə işlər davam edir.

Mərkəzi Bank tərəfindən sığorta fəaliyyətində rəqəmsallaşma üzrə işlər davam etmişdir. Aidiyyəti qurumların elektron informasiya sistemlərinə inteqrasiyası məqsədilə qanunvericiliyə dəyişiklik layihələri hazırlanmış, onlardan rəy və təkliflər toplanaraq Nazirlər Kabinetinə göndərilmişdir. Bununla yanaşı, 18 oktyabr 2022-ci il tarixində “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişiklik layihəsi təsdiq edilmişdir. Qeyd olunan dəyişiklik daşınmaz əmlakın icbari sığortası, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası, sərnişinlərin icbari fərdi qəza sığortası növləri üzrə sığorta müqavilələrinin elektron sənəd formasında bağlanmasını əhatə edir.

Sığorta qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində “Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta haqqı məbləğlərinin hesablanması Qaydası”, “Yol-nəqliyyat hadisəsində zərərçəkənin idarə etdiyi avtonəqliyyat vasitəsinə dəyən zərərin ödənilməsi ilə bağlı sığortaçılar arasında qarşılıqlı ödəmələrin tənzimlənməsinə dair Qayda” Mərkəzi Bankın İdarə Heyəti tərəfindən təsdiqlənmiş və müvafiq olaraq 01 oktyabr və 01 noyabr 2022-ci il tarixlərindən tətbiq edilmişdir. Vətəndaşların elektron sənəd formasında olan müqavilələrinə çıxış imkanının genişləndirilməsi və prosesin sadələşdirilməsi məqsədilə Mərkəzi Bankın İdarə Heyətinin 28 dekabr 2022-ci il tarixli Qərarı ilə “İcbari sığorta növlərinin aparılmasına icazə verilməsi üçün Əlavə Tələblər”ə müvafiq dəyişikliklər və “Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə icbari sığorta şəhadətnaməsinin forması və məzmununa dair Tələblər” təsdiqlənmişdir. “Yaşıl Kart Sistemi çərçivəsində fəaliyyət göstərmək istəyən sığortaçıların İcbari Sığorta Bürosu tərəfindən formalaşdırılan cari öhdəliklər ehtiyatı ilə bağlı hesaba ödədikləri birdəfəlik pul vəsaitinin məbləğinin və Yaşıl Kart Sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar tərəfindən bu sistem üzrə tətbiq ediləcək sığorta haqlarının müəyyən edilməsi barədə” Qərar Mərkəzi Bankın İdarə Heyəti tərəfindən təsdiqlənmiş və 01.01.2023-cü il tarixindən qüvvəyə minmişdir.

Sığorta sahəsi üzrə maarifləndirmə istiqamətində Mərkəzi Bank, İcbari Sığorta Bürosu və Azərbaycan Sığortaçılar Assosiasiyası arasında imzalanan Memorandum əsasında sığorta məlumatlılığının dəyərləndirilməsi məqsədilə vətəndaşlar arasında sorğu keçirilmiş, təbliğat və təşviqat proqramı hazırlanmışdır. Sığorta savadlılığının artırılması istiqamətində maarifləndirici tədbirlər mütəmadi olaraq həyata keçirilir.

Sığorta bazarının kadr potensialının genişləndirilməsi üzrə əməkdaşların təlimləri Türk Sığortaçılar İnstitutunun peşəkar heyəti ilə birlikdə hazırlanmış təlim proqramı əsasında eyni qurumun təlimçiləri tərəfindən həyata keçirilir. Təlim proqramı sığorta sahəsinin bütün istiqamətlərini əhatə edir. Hazırda nəzəri və praktiki hissələrdən ibarət olan və 15 ay davam edəcək Aktuari inkişaf proqramı üzrə tədris həyata keçirilir.

### 2.10 Kapital bazarının inkişafı və dayanıqlığının təmin olunması

*Mərkəzi Bank tərəfindən qiymətli kağızlar bazarında tənzimləmə və nəzarət proseslərinin səmərəliliyinin artırılması, kapital bazarının hüquqi çərçivəsinin beynəlxalq*

*standartlara uyğunlaşdırılması, əməliyyat infrastrukturunun təkmilləşdirilməsi, həmçinin bazarda tələb və təklifin dəstəklənməsi istiqamətində intensiv tədbirlər həyata keçirilmişdir.*

Dünya Bankının "Əlverişli biznes mühiti" hesabatından irəli gələrək Mərkəzi Bank tərəfindən yaşıl istiqrazlar üzrə normativ bazanın yaradılması məqsədilə Mülki Məcəlləyə dəyişikliklər layihəsi hazırlanmış və aidiyyəti dövlət orqanlarının rəyləri nəzərə alınmaqla 2022-ci ilin 28 oktyabr tarixində Nazirlər Kabinetinə təqdim edilmişdir. Dəyişiklik layihəsi qüvvəyə mindikdən sonra aidiyyəti dövlət orqanları, həmçinin Dünya Bankının texniki dəstəyi ilə yaşıl istiqrazlar üzrə müvafiq qaydaların hazırlanması nəzərdə tutulur.

Kapital bazarı vasitəsilə maliyyələşmə imkanlarının artırılması istiqamətində Azərbaycan Respublikasının Prezidentinin 24 avqust 2022-ci il tarixli Fərmanı ilə istiqrazlara zəmanət mexanizmi yaradılmışdır. Fərmana əsasən emitentlər tərəfindən manatla buraxılan korporativ istiqrazlara İpoteka və Kredit Zəmanət Fondu (İKZF) tərəfindən təminatın verilməsi və İKZF tərəfindən müvafiq qaydaların beş ay müddətində hazırlanması nəzərdə tutulur. Sözügedən mexanizmin tətbiqinə 2023-cü ildə başlanması nəzərdə tutulmuşdur.

13 may 2022-ci il tarixində Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən yalnız kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont və faiz gəlirləri 2023-cü il fevralın 1-dən etibarən 5 il müddətində vergidən azad edilmişdir. Eyni zamanda, istiqrazlar üzrə faiz vergisinin hesablanması beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilmişdir. Həmçinin kapital bazarında əlverişli vergi rejiminin yaradılması üzrə Mərkəzi Bank və Dövlət Vergi Xidməti tərəfindən hazırlanmış qanun layihəsində səhmləri kütləvi təklif edilən və istehsal fəaliyyəti ilə məşğul olan səhmdar cəmiyyətlərə 3 il müddətinə mənfəət vergisindən güzəştlərin verilməsi, emissiya gəlirlərinin mənfəət vergisindən azad edilməsi və fond birjasında səhm və istiqrazlarla təkrar bazar əməliyyatlardan yaranan gəlirlərin vergiləndirilməsinə güzəştin tətbiq edilməsi, həmçinin investisiya fondları və onların idarəçilərinin əldə etdikləri mənfəətin 3 il müddətinə vergidən azad edilməsi nəzərdə tutulur.

Azərbaycan və Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 9-cu iclasında Azərbaycan və Türkiyə kapital bazarı arasında qarşılıqlı əlaqələrin qurulması qərara alınmışdır. 2022-ci ilin dekabr ayında Türkiyənin mərkəzi depozitarının Milli Depozit Mərkəzində (MDM) nominal saxlayıcı hesabının açılması təmin edilmişdir. Bu da öz növbəsində qiymətli kağızların qarşılıqlı listinqinə zəmin yaradır.

Özəl sektorun kapital bazarı vasitəsilə maliyyələşmə imkanlarının artırılması məqsədilə Mərkəzi Bank tərəfindən Qiymətli kağızların emissiyası sistemi yaradılmış və 02 dekabr 2022-ci il tarixindən istifadəyə verilmişdir. Sistem vasitəsilə investisiya qiymətli kağızlarının dövlət qeydiyyatına alınması və yerləşdirilməsi ilə bağlı Mərkəzi Bank, Milli Depozit Mərkəzi və Bakı Fond Birjası tərəfindən emitentlərə göstərilən xidmətlərin elektron şəkildə həyata keçirilməsinə başlanılmışdır.

Hesabat dövründə özəl sektorun kapital bazarından maliyyələşmə təşəbbüslərinin və fond birjasında listinqin təşviq edilməsi üzrə müvafiq işlər davam etdirilmişdir. Bakı Fond Birjası tərəfindən anderraytinq xidməti göstərən investisiya şirkətlərinin mükafatlandırılması mexanizminin tətbiqi davam etdirilmişdir. Əlavə olaraq, Bakı Fond Birjası tərəfindən listinqə yeni daxil ediləcək səhmlər üzrə listinq tarifləri 31 dekabr 2023-cü il tarixədək ləğv edilmişdir.

Qiymətli kağızlar üzrə klirinq və hesablaşma proseslərinin təkmilləşdirilməsi məqsədilə mövcud hesablaşma modelinə bir sıra dəyişikliklər edilmiş, ödənişə qarşı çatdırılma prinsipinin tam tətbiqi üzrə hesabatlıq tələbləri, habelə əməliyyat çevikliyinin artırılması üzrə

tələblər müəyyən edilmişdir. Potensial emitentlərin və investorların bazar haqqında biliklərinin artırılması, bütövlükdə kapital bazarlarında peşəkarlığın və məlumatlılığın formalaşdırılması istiqamətdə beynəlxalq maliyyə təşkilatları, Bakı Fond Birjası, KOBİA, Azərbaycan Sahibkarlar Konfederasiyası, Sahibkarlığın İnkişafı Fondu və investisiya şirkətlərinin iştirakı ilə intensiv maarifləndirmə tədbirləri təşkil edilmişdir.

Hesabat ilində qiymətli kağızlar bazarında ticarət dövriyyəsinin ümumi həcmi 15563 mln. manat təşkil etmişdir. Səhm bazarında 45%, korporativ istiqrazların ilkin bazarında 31% və dövlət istiqrazları bazarında 25% artım qeydə alınmışdır. Hesabat dövründə Bakı Fond Birjasında aparılmış əməliyyatların həcmi 14948 mln. manat təşkil etmiş və korporativ istiqrazların kütləvi təklif üsulu ilə fond birjasında yerləşdirilməsi üzrə müsbət dinamika davam etmişdir. Belə ki, 2022-ci ildə Bakı Fond Birjasında korporativ qiymətli kağızların ümumi ticarət dövriyyəsi ötən illə müqayisədə 93% artaraq 1574 mln. manata çatmışdır.

2022-ci ildə dövlət qiymətli kağızları bazarında aparılan əməliyyatların həcmi 8313 mln. manat təşkil etmişdir. Bu dövrdə Mərkəzi Bankın notları ilə Bakı Fond Birjasında 90 hərrac keçirilmiş, notlarla ilkin və təkrar bazar əməliyyatların həcmi 9% artaraq 5249 mln. manata yüksəlmişdir. Dövlət istiqrazlarının yerləşdirilməsi üzrə Bakı Fond Birjasında 48 hərrac keçirilmişdir. Dövlət istiqrazlarının ilkin bazarının həcmi 61% artaraq 2407 mln. manata, tədavüldə olan dövlət istiqrazlarının həcmi isə 66% artaraq 4161 mln. manata yüksəlmişdir.

Hesabat ilində Mərkəzi Bank tərəfindən 9039.4 mln. manat məbləğində səhm və istiqrazların dövlət qeydiyyatı həyata keçirilmişdir. Eyni zamanda, korporativ qiymətli kağızların kütləvi təklifi üzrə ümumi məbləği 830 mln. manat olan 33 emissiya prospekti və 1 informasiya memorandumu təsdiq edilmişdir.

## 2.11 Maliyyə bazarlarında istehlakçıların və investorların hüquqlarının qorunması və maliyyə maarifləndirmə işlərinin aparılması

*2022-ci ildə Mərkəzi Banka daxil olmuş müraciətlər əsasında istehlakçıların və investorların hüquqlarının pozulmasının qarşısının alınması və pozulmuş hüquqların bərpasının təmin edilməsi istiqamətində zəruri tədbirlər görülmüşdür.*

Hesabat dövründə istehlakçı və investorlardan yazılı, qaynar xətt və Votsap vasitəsilə ümumilikdə 68534 müraciət daxil olmuşdur. 11812 yazılı müraciətin 68%-i bank sektorunu əhatə etmişdir. Müraciətlərin araşdırılmasının nəticəsi olaraq, bir çox məsələ öz həllini tapmışdır. O cümlədən fiziki şəxslərin problemli kreditlərinin həlli üzrə 2019-cu il 28 fevral tarixli Fərmana uyğun hesablanmış kompensasiya məbləğlərinin 43275 manat hissəsinin 44 vətəndaşa geri qaytarılması təmin edilmişdir. Bununla yanaşı, zərərçəkmiş şəxslərə ümumilikdə 839 min manatdan çox sığorta ödənişi həyata keçirilmişdir. Dövr ərzində “966” qaynar xəttinə daxil olmuş 55037 zəng operativ şəkildə cavablandırılmış, 1242 vətəndaşla görüşlər keçirilmiş, Votsap xidmətinə daxil olan 1685 müraciətə baxılmışdır. Müraciət edənlərin hüquqlarının müdafiəsi ilə bağlı zəruri tədbirlərin görülməsi ilə yanaşı, hüquqi maarifləndirmə işləri də aparılmışdır.

Maliyyə xidmətləri istehlakçılarının müraciətlərinin “Vətəndaş müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununa və müvafiq sahəvi qanunvericilik aktlarına uyğun tənzimlənməsi məqsədilə “Maliyyə institutlarında istehlakçıların şikayətlərinə baxılmasına dair Metodoloji Rəhbərlik” təsdiq edilmişdir. Bölgələrdə yaşayan və nəzarət subyektləri ilə narazılıqları yaranan istehlakçıların Mərkəzi Bankın Quba, Biləsuvar və Gəncə şəhərlərində yerləşən regional mərkəzlərində qəbulu həyata keçirilmişdir.

Hesabat ilində maliyyə savadlılığının artırılması istiqamətində, o cümlədən beynəlxalq səviyyədə keçirilən “Qlobal pul həftəsi” çərçivəsində silsilə tədbirlər həyata keçirilmişdir. 22 orta məktəbin pedaqoji heyət və şagirdlərinə, 22 ali təhsil müəssisəsinin müəllim və tələbələrinə, məcburi köçkün statuslu vətəndaşlara, həmçinin "Veysəloğlu" Şirkətlər Qrupu əməkdaşlarına və “Əbədi Birlik - Gənclər” İctimai Birliyinin üzvü olan tələbələrə (ümumilikdə 2000 nəfərə yaxın) maliyyə savadlılığı mövzularında təlimlər keçirilmişdir.

“Uşaqlar və pullar” virtual kursu üzrə 10-16 yaşlı şagirdlər arasında iki dildə keçirilən müsabiqədə, pedaqoji heyət, habelə təşkilat rəhbərləri və insan resursları menecerləri üçün “Maliyyə savadlılığı: strategiya, tədris, təhlil” virtual kursu üzrə müsabiqədə, VISA beynəlxalq kart təşkilatı ilə birgə “Bankçılıq və rəqəmsal ödənişlər” virtual kursu üzrə müsabiqədə ümumilikdə 1249 nəfər iştirak etmiş, 544 nəfər uğurlu iştirakçıya sertifikat və hədiyyələr təqdim edilmişdir.

2022-ci ilin “Şuşa ili” elan edilməsi ilə əlaqədar Mərkəzi Bank Mastercard beynəlxalq kart təşkilatı ilə birgə maliyyə savadlılığı ayında Qarabağ və Şərqi Zəngəzur Regional təhsil idarələrinin tabeliyində olan ümumtəhsil məktəblərinin pedaqoji heyəti və şagirdləri üçün maliyyə savadlılığı mövzusunda hazırlanmış virtual kurslar üzrə müsabiqə təşkil etmişdir. Müsabiqə çərçivəsində 43 şagird qalib olmuş, 25 şagird isə fərqlənmişdir.

Mərkəzi Bankın Naxçıvan MR İdarəsinin təşkilatçılığı ilə gənclər üçün “Qlobal pul həftəsi”nə həsr olunmuş beynəlxalq pul sərgisi keçirilmiş, 8 kommersiya bankı əməkdaşları üçün intellektual oyun təşkil olunmuş, həmçinin Heydər Əliyev adına tam orta məktəbin ibtidai sinif şagirdləri üçün “Gəlin manatımızı tanıyaq!” adlı tədbir keçirilmişdir.

Azərbaycan Banklar Assosiasiyası ilə birgə 13-15 yaşlı məktəblilər üçün “Avropa pul viktorinası 2022”nin milli final mərhələsi keçirilmiş və 2 qalib şagird müəyyənləşdirilərək müvafiq hazırlıq üçün cəlb edilmişdir. 10 may 2022-ci il tarixində 29 ölkədən 57 şagirdin iştirak etdiyi Avropa finalı mərhələsində ölkəmizi təmsil edən 2 şagird 9-cu yeri tutmuşdur. “Azərbaycan Böyük Britaniya Məzunları” İB-nin “Təhsil üçün əl-ələ” layihəsi çərçivəsində kəndlərdən cəlb edilmiş 30 şagirdə seminar keçirilmişdir.

Sığorta sahəsində “Peşəkar kadr potensialının yetişdirlməsi” və “Sığorta savadlılığının artırılması, maarifləndirmə, təbliğat və qarşısıalınma tədbirlərinin həyata keçirilməsi” adlı iki böyük layihə davam etdirilmişdir. Bununla yanaşı, Mərkəzi Bank Azərbaycan Sığortaçılar Assosiasiyası ilə birlikdə ölkədə müasir bilik və bacarıqlara malik aktuarilərin yeni nəslinin formalaşdırılması məqsədilə 91 nəfər iştirakçı ilə Aktuari inkişaf proqramına başlamışdır.

Maliyyə savadlılığı portalının (bizimpullar.az) məzmunu zənginləşdirilmiş, yeni videoçarxlar yerləşdirilmişdir. Portala 2022-ci il ərzində 30957 ziyarətçi tərəfindən 140961 baxış olmuşdur. Virtual təhsil platformasının (edu.e-cbar.az) məzmunu da zənginləşdirilmiş və 9 distant kurs hazırlanaraq istifadəyə verilmişdir. Platformada təhsilini başa çatdıranlar üçün il ərzində 1065 sayda yekun imtahan təşkil olunmuş, uğurlu 849 nəfər müvafiq sertifikatla təltif olunmuşdur.

Maliyyə məhsul və xidmətlərinin məlumat axtarış sisteminə (infobank.az) “Akkreditivlər” və “Bank qarantiyaları” üzrə iki yeni kateqoriya əlavə edilərək istifadəyə verilmişdir. Sistemə 2022-ci il ərzində 14007 ziyarətçi 41189 baxış keçirmişdir. Maliyyə savadlılığı ilə bağlı materiallar sosial şəbəkələrdə mütəmadi olaraq paylaşılmışdır.